*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 90-95*
https://doi.org/10.62837/2024.6.90

**MURADLI RÜQƏYYA BƏHRUZ QIZI**
**ADPU Cəlilabad filialının müəllimi**
muradliruqeyya319@gmail.com

# AHƏNG QANUNU VƏ HECA ƏSASINDA LİNQVİSTİK TƏHLİL

**XÜLASƏ**

Hal- hazırda ümumtəhsil məktəblərimizdə ibtidai sinifdən başlayaraq keçirilən mövzulardan biri də ahəng qanunu və hecadır. Təlim prosesində heca və ahəng qanunun öyrədilməsi mühüm əhəmiyyət daşıyır.

Məqalədə fonetikada öyrədilən mövzulardan olan ahəng qanunu və heca haqqında ətraflı məlumat verilmişdir.

Ahəng qanunun növləri olan- saitlərinn ahəngi, samitlərin ahəngi, saitlərlə samitlərin ahəngi saitlərin növləri əsasında izah edilmişdir

Hecanın tiplərinin dilimizdə özünü necə göstərməsi, şagirdlərin başa düşməsi üçün bir sıra mühüm əlamətlər də qeyd olunmuşdur.

Həmçinin ahəng qanunu və hecanın növlərinə dair beşinci sinfin "Ədəbiyyat" dərsliyindən inteqrasiya yolu ilə mətnlər seçib tapşırıqlar əsasında öyrətməyin yolları göstərilmişdir.

Ahəng qanunun və hecanın şagirdlərə izah olunması orfoqrafik cəhətdən mühüm əhəmiyyətə malik olmaqla yanaşı, onların orfoepiya bacarıqlarının inkişafında da mühüm rola malikdir.

Ahəng qanunun və hecanın öyrədilməsində yaranan çətinliklərin qarşısını alaraq mövzunun daha aydın başa düşülməsi üçün bir sıra məsələlərə də toxunulmuşdur. Məsələn dilimizdə ahəng qanunua tabe olan və ya tabe olmayan sözlərə şəkilçilər artırarkən hansı məsələlərə diqqət yetirilməsi, həmçinin hecanın tipləri öyrədilərkən hansı xüsusiyyətlərə diqqət yetirilməsi barədə izahlar verilmişdir.

Bu gün məktəblərimizdə yeni üsullar və texnologiyalarla dərs aparmaq mühüm əhəmiyyət daşıyır. Ahəng qanunu və hecanı da öyrədərkən yeni yanaşmalara fikir verib bütün qaydaları öyrətməyə önəm verilməlidir.

**Açar sözlər.Ahəng qanunu, heca, qalın saitlər, dodaqlanan saitlər, dodaqlanmayan saitlər, hecanın növləri**

Ahəng qanunu dilçilikdə dəmir qanun adlandırılır. Bu qanunun tədris prosesində mühüm əhəmiyyəti vardır və ümumi türk dillərində, yazılı abidələrimizdə mövcud olmaqla bu günə qədər özünü qoruyub saxlamışdır. Ahəng qanunu sözdə səslərin bir-birini izləməsinə deyilir.(1,54) Şagirdlərə başa salıram ki, bu qanunun dilimizdə üç növü vardır:

1)Saitlərin ahəngi,
2)Samitlərin ahəngi,
3)Saitlərlə samitlərin ahəngi.

Saitlərin ahəngi dedikdə incə və qalın, dodaqlanan və dodaqlanmayan saitlərin ahəngi başa düşülür. Bunu aşağıdakı nümunələr əsasında izah edirik.

a) ə+ə saitinin bir-birini izləməsi: nəvə, dələ, tələ, ələk və s.

b) e+ə saitinin bir-birini izləməsi: demək, gedək, seyrək, deyək və s.

c) ə+i saitinin bir-birini izləməsi: dəmir, əkin, çətin, sərin və s.

d) i+i saitinin bir- birini izləməsi: iti, iri, indi, kiçik və s.

Qalın saitlərin ahəngini də bu şəkildə aşağıdakı kimi izah edirəm.

a) a+ı saitlərinin ahəngi: ağız, balıq, mahnı, qarı və s.

b) a+a saitlərinin ahəngi: alma, qanad, yanaq, qalaq və s.

c) ı+ı saitlərinin ahəngi: qırıq, cırıq, pıçıltı və s.

ç) o+u saitlərinin ahəngi: boyun, qoyun, moruq, toyuq və s.

Beləliklə şagirdlər dərk edirlər ki, eyni sözdə həm incə, həm də qalın sait varsa ahəng qanunu pozulmuş sayılır. Məsələn:

a) a+i – sait, sabit və s.

b) ü+a+i: mübariz, müsahib və s.

c) i+a: nişan, izah və s.

ç) i+a+ə: iradə, imarət və s. bunları deyib, qeyd etdirdikdən sonra şagirdlər daha yaxşı başa düşsünlər deyə onlardan da nümunələr soruşuram.

Şagirdlərin dərsə marağını artırmaq üçün Azərbaycan dilini digər fənnlə əlaqələndirirəm. Belə ki, şeir vasitəsilə onmlara həm mövzunu öyrədir, həm də onların ifadəli oxu bacarığını inkişaf etdirirəm.

Diqqəti ədəbiyyat kitabındakı H.Arifin "Analar" şeirinə yönəldirik.

Şagirdlərə qalın və incə saitlərin ahəngi olan bəndləri göstərməyi tapşırırıq. Onlar dördüncü bənd qalın:

Alnında zamanın açdığı qırış,
Başına qar tökür, qar ələyir qış.
Odun istisindən aralanmamış,
Suyun soyuğunda keçir analar.

Beşinci isə incə saitlərin ahəngi:

Özüm də bilmirəm, Hüseyn, niyə
Başımın tüstüsü çəkilir göyə?
Torpaqmı anasız qalmasın eyə,
Torpağın qoynuna köçür analar?

olduğunu müəyyənləşdirirlər. Daha sonra test tapşırıqları verərək möhkəmləndirmə aparıram. Hansi variantda bütün sözlər ahəng qanununa tabedir ?

A) alın, geyim, əlcək

B) alim, etiraf, etibar

C) düşüncə, qarğa, kitab

Hansi variantda sözlərdən arasında yalnız biri ahəng qanununa tabe deyil ?

A)beyin, nicat, amil

B) geyim, alça, bala

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 90-95

C)hava, şamil, alma

Dördündən biri fərqlidir.

A) qapı B) dəli C) dünya D) dəniz

Dodaqların vəziyyətinə görə saitlərin ahəngi də gözlənilməlidir. Dodaqların ahənginə görə əvvəl dodaqlanan daha sonra dodaqlanmayan saitlərə nəzər yetirək. Dodaqlanan saitlərin ahəngində bəzi nümunələrə diqqət edək.

a) ö+ü saitlərinin bir-birini izləməsi: bölüm, öküz, sönük və s.

b) u+o saitlərinin bir-birini izləməsi: buzov, buxov və s.

c) u+u saitlərinin bir-birini izləməsi: quzu, yuxu və s.

Dodaqlanmayan saitlərin ahəngində də bəzi nümunələrə baxaq:

a) ə+ə saitlərinin ahəngi: bələk, bəzək, nənə və s.

b) i+i saitlərinin ahəngi: kiçik, kirpi, şirin və s.

Saitlərlə samitlərin ahəngini də şagirdlərə öyrədirəm. Söz daxilində arxa sıra saitləri ilə arxa sıra samitlərinin və ön sıra saitləri ilə ön sıra samitlərinin bir-birini izləməsi nəticəsində saitlərlə samitlərin ahəngi yaranır [2, 150].

Qalın saitlərlə ğ, x, q, k` samitləri, incə saitlərlə isə ğ, k, x` samitləri bir birini izləməsi: qol, ağ,ox, qız və s.

Eyni zamanda kar samitlərinin bəzilərinin cingiltililəşməsi, cingiltili samitlərin saitlər arasında başqa cingiltili samitə çevrilməsi saitlərlə samitlərin ahənginə aiddir. Məsələn almas-almazın, otaq-otağa və s.

Samitlərin ahəngində isə eyni qrupdan olan samitlərin ahəngi nəzərdə tutulur. Məsələn kar samitlərin kar samitlərlə ahəngi: üst, yaxşı, tüstü;

cingiltili samitlərin cingiltili samitlərlə ahəngi: güzgü, dörd , özgə və s.

**Sözlərdə hecanın öyrədilməsi**. Şagirdlərin diqqətinə çatdırırıq ki, sözləri fonetik təhlil edərkən mühüm məsələlərdən biri də onların hecalara ayrılmasıdır. Heca haqqında anlayış şagirdlərə ibtidai siniflərdə keçirilir(4, 170).

Hecanı öyrətmək və öyrənməyin vacib olduğunu göz önündə canlandıraraq hecanı ətraflı izah edirik. Tələffüz zamanı sözün asanlıqla bölünə bilən hissəsinə heca deyilir. Sözlər bir, iki, üç və daha artıq hecadan ibarət ola bilər. Hər hecada bir sait hərf olur.Ona görə də sözdə neçə sait varsa, bir o qədər heca olur. Məsələn odun sözündə 2 sait hərf var, deməli 2 hecalıdır o-dun; yaxud da müşahidə sözündə 4 sait hərf var,ona görə də 4 hecalıdır mü-şa-hi-də və s.

Hər hansı hecada iki sait işlənə bilmədiyi kimi bir hecada iki samit də işlənə bilməz. Lakin bu qayda alınma sözlərdə pozulur. Məsələn, trak-tor, dram, te-le- qraf və s.

Heca ilə bağlı bəzi vacib məqamları izah edib onların növlərini başa salırıq Söz ortasında işlənən qoşa samitlərdən biri əvvələ, ikincisi samit isə sonrakı hecaya düşür. Məsələn, əv-vəl və s. Samit səs özündən sonra gələn sait səsin yaratdığı hecaya tabe olur. Məsələn ki-tab, ki- ta-bın, ki- ta-bı-nı və s.

Üç samitin yanaşı işləndiyi sözlərdə daha çox ilk iki samit əvvəlki saitə üçüncü samit isə sonrakı saitə tabe olur. Məs. gənc-lik, xalq-lar və.s. Sözün hecaya

bölünməsi sözün yazılışına uyğun aparıldığını qeyd edirik. Heca hansı səslə başlayıb, hansı səslə qurtarmasından asılı olaraq növlərə ayrılır.

Bundan əvvəl şagirdlərə hecanın saf və qovuşuq olaraq hissələrə ayrıldığını izah edirik. Bu ayrılma fonetik tərkibə görə olduğunu qeyd edirik. Yəni saf heca təkcə bir sait səsdən ibarət olan hecadır.Məsələn ata-a-ta, ana-a-na və s. sözlərdəki birinci heca bir sait səsdən ibarət olmaqla saf hecadır. Qovuşuq heca sait və samit birləşməsindən düzələn hecadır. Məsələn ba-la sözündəki birinci heca bir saitlə bir samitin birləşməsindən, ikinci heca isə bir samitlə bir sait birləşməsindən yaranmış qovuşuq hecadır.

Daha sonra saitin mövqeyinə görə saitlərin 2 cür olduğunu izah edirik. Örtüsüz heca saitlə başlanan hecadır. Məsələn armud sözündəki birinci heca a saiti ilə başlayır, r ilə qurtarır. Açıq heca saitlə bitən hecadır. Məsələn nəvə sözündəki birinci və ikinci heca n samiti ilə başlasa da, ə saiti ilə qurtardığı üçün açıq hecadır.(5, 15). Samitin mövqeyinə görə də hecanın 3 növü vardır.

1. Örtülü heca samitlə başlanan hecadır. Məsələn sulu sözünü təşkil edən su-lu hecaların hər ikincisi örtülü hecadır.

2. Qapalı heca samitlə bitən hecadır. Məsələn anmaq sözündəki hecalardan birincisi n,ikincisi isə q samiti ilə bitən qapalı hecadır.

3. Örtülü qapalı heca samitlə başlanan və samitlə bitən hecadir. Məsələn yazmaq sözündəki hecaları yaz- maq hər ikisi samitlə başlayır, samitlə bitir ,ona görə də örtülü- qapalı hecadır. (3,83).

Beləliklə, sait və samitin mövqeyini nəzərə alaraq hecanın dörd növünü qruplaşdırmaqla şagirdlərə izah edirik.

1) yalnız bir saitdən ibarət olan heca. Belə hecaya saf-örtüsüz-açıq heca deyilir. Məsələn a- na, o-taq, a-da və s.

2) saitlə başlanan, samitlə bitən heca. Buna ötrüsüz- qapalı heca deyilir. Məsələn iş, it, et və s.

3) samitlə başlanan, samitlə bitən heca. Belə hecalara örtülü- qapalı heca deyilir.Məsələn daş, diş, dil, diz və s.

4) samitlə başlanan saitlə bitən heca. Belə heca örtülü- açıq heca adlanır. Məsələn sarı, qala, dənə, tələ və s. Nəticədə, Azərbaycan dilində mövcud olan hecanın növləri bunlardır: saf heca,örtüsüz qapalı heca,örtülü qapalı heca,örtülü açıq heca .

Şagirdlər samitlə bitən, lakin saitlə başlayan şəkilçilər qəbul etmiş sözləri hecalara bölərkən çox vaxt səhv buraxırlar. Bu onun nəticəsində olur ki, şagirdlər həmin sözün hecaları ilə morfoloji hissələrin, bir- bir ilə qarışdırırlar. Sözü başqa sətrə köçürərkən onu hecalara deyil, kök və şəkilçiyə ayırırlar. Məsələn oxuyur-du, məktəb-in, qaç- araq, inan-ırdı və s. Sözü hecalarına görə təhlil edərkən bu cəhətə xüsusi diqqət yetirilməlidir.

Şagirdlərə izah edirik ki, sözləri hecalara ayırarkən həm kökü, həm də şəəkilçini hecalara ayırmalıyıq. Məsələn ya-zır-dı, bi-lir-di, ya- şa-yır-dı.

Şagird təhlil zamanı, eləcə də yazı işində belə səhvə yol verdikdə məsələni onların şüurlu sürətdə başa düşməsi üçün sözü kök və şəkilçiyə ayırıb həmin sözün hecaları ilə müqayisə etmək lazımdır.Bütün bu izahlardan belə bir nəticə çıxarmaq olar ki, fonetik təhlil üçün bütün vahidləri bir-bir öyrədib təhlilə cəlb etməliyik. Məhz bu vahidlər içərisində heca və ahəng qanunu mühüm rola malikdir.

## ƏDƏBİYYAT SİYAHISI

1.Afad Qurbanov.Müasir Azərbaycan ədəbi dili,I cild,Bakı, 2019
2.Buludxan Xəlilov, Müasir Azərbaycan dili.fonetika, yazi,əlifba, qrafika, orfoqrafiya, orfoepiya,Bakı,2013
3.Ə.Dəmirçizadə Müasir Azərbaycan dili,Bakı,"Şərq- Qərb",2007,
4.H.B.Balıyev,A,H.Balıyev.Azərbaycan dilinin tədrisi metodikası Bakı,Qismət ,2014,
5.N.Kubisev.Linqivistik təhlilin metodikası ,Gəncə,2014

**Muradli Ruqayya Bahruz gizi**

## Linguistic analysis based on saund,letter and phoneme

### Summary

One of the topics currently held in our secondary schools starting from primary school is the law of harmony and syllabary. In the learning process, teaching the syllable and the law of harmony is of great importance.

The article provides detailed information on the law of harmony and syllabic, one of the subjects taught in phonetics.

The types of harmony law-the harmony of vowels, the harmony of consonants, the harmony of vowels and consonants are explained on the basis of the types of vowels

How the types of syllables manifest themselves in our language, a number of important signs for students to understand were also noted.

Also, from the textbook "literature" of the fifth grade on the law of harmony and types of syllables, ways to select texts by integration and teach them on the basis of tasks are indicated.

In addition to being orthographically important in explaining the law and syllable to students, Harmony also plays an important role in the development of their orthoepy skills.

A number of issues have also been addressed for a clearer understanding of the subject, preventing the difficulties that arise in the teaching of the harmony law and the syllable. For example, in our language, explanations were given about what issues should be paid attention to when adding suffixes to words that obey or do not obey the law of harmony, as well as what features should be paid attention to when teaching types of syllables.

Today, it is of great importance to conduct classes with new methods and technologies in our schools. When teaching the law of harmony and the syllable, emphasis should be placed on paying attention to new approaches and teaching all the rules.

**Key words. The law of harmony, syllabic, thin vowels, thick vowels, lipped vowels, types of syllable**

**МУРАДЛИ РУКАЙЯ БАХРУЗ КЫЗЫ**

**РЕЗЮМЕ**

В настоящее время одной из тем, которая проводится в наших общеобразовательных школах, начиная с начальной школы, является закон гармонии и слог. В процессе обучения слог и гармония обучение закону имеет важное значение.

В статье представлена подробная информация о законе гармонии и слоге из предметов, изучаемых в фонетике.

Гармония объясняется на основе типов гласных-гармония гласных, гармония согласных, гармония согласных с гласными Также был отмечен ряд важных признаков того, как типы слога проявляются в нашем языке, для понимания учащимися.

Также показаны способы подбора текстов по закону гармонии и видам слога из учебника “литература” пятого класса путем интеграции и обучения на основе заданий. Объяснение учащимся гармонического закона и слога не только имеет важное орфографическое значение, но и играет важную роль в развитии их орфоэпических навыков.

Гармония также был затронут ряд вопросов для более четкого понимания предмета, избегая трудностей, возникающих при обучении закону и слогу. Например, в нашем языке есть объяснения того, на какие вопросы следует обращать внимание при увеличении суффиксов к словам, которые подчиняются или не подчиняются закону гармонии, а также на какие особенности следует обращать внимание при обучении типам слога. Сегодня в наших школах важно проводить уроки с использованием новых методов и технологий. При обучении закону гармонии и слогу также следует уделять внимание новым подходам и обучать всем правилам.

**Ключевые слова. Закон гармонии, слог, тонкие гласные, толстые гласные, губные гласные, типы слога**

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi:Fil,e,n.,dos.Y.B.Dadaşlı**
**tərəfindən çapa tövsiyə olunmuşdur**